

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 254 (21.406)

25 dekabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika



Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunan yaşayış binası istifadəyə verilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Binanın tikintisinə 2011-ci ilin dekabrında başlanılıb və artıq bina istismara hazırdır. Binada gözdən əlillər üçün xüsusi layihə əsasında məişət şəraiti yaradılıb. Onların əl və ayaqla hiss etmələrinin asanlaşdırılması üçün müvafiq yerlərdə xüsusi tikinti materiallarından və işarələrdən istifadə olunub.

Dövlətimizin başçısı yeni binanın sakinləri ilə görüşdü.

Dövlətimizin başçısı mənzillərin orderlərini sakinlərə təqdim etdi.

Sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular. Binadakı 132 mənzildən 22-si üç, 44-ü iki, 66-sı isə bir otaqlıdır. Burada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

* * *

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Nərimanov Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi və 8 saylı tibbi sosial ekspert komissiyasının yeni inzibati binasının açılışında iştirak etdilər.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Nərimanov Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi də müasir texniki avadanlıqla təchiz olunub. Mərkəzdə vətəndaşların müraciətlərinə baxılması üçün zəruri şərait var. Bu da müraciətlərə baxılmasında şəffaf iş rejiminin təmin olunmasına xidmət edir.

Prezident İlham Əliyevə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi – VEMTAS üzrə görülən işlərlə bağlı da məlumat verildi.

## Naxçıvanda sosial qayğıya ehtiyacı olanlara mənzil və minik avtomobilləri təqdim olunmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı və sağlamlığı dayanır".***

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə insanların rahat yaşayışının təmin olunması sahəsində kompleks tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlər muxtar respublikada da davamlı xarakter almışdır. Son illər sosial qayğıya ehtiyacı olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlara nəqliyyat vasitələrinin verilməsi isə həyata keçirilən sosial tədbirlər içərisində xüsusi yer tutur.



Dekabrın 24-də Naxçıvan şəhərində 4 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına mənzil, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 2 nəfərə və 4 Azərbaycan Vətən Müharibəsi veteranına "NAZ Lifan-320" markalı minik avtomobili təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək demişdir ki, muxtar





respublikada xüsusi qayğıya ehtiyacı olan insanların həyat şəraitinin yaxşılaşdırılması və tibbi reabilitasiyası diqqət mərkəzində saxlanılır. 2015-ci ildə 349 sağlamlıq imkanları məhdud şəxs protez-ortopedik xidmət və 390 nəfər texniki bərpa vasitələri ilə təmin olunmuşdur. İl ərzində 189 nəfər müxtəlif sanatoriya və pansionatlara, 18 nəfər xarici ölkələrə müalicəyə göndərilmiş, 657 nəfər Əlillərin Bərpa Mərkəzində müalicə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Azərbaycan dövləti sağlamlıq imkanları məhdud şəxslərə, torpaqlarımızın müdafiəsi zamanı sağlamlığını itirmiş insanlara, şəhid ailələrinə hərtərəfli qayğı göstərir. Bu kateqoriyadan olan insanların mənzil və avtomobillə təmin olunması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Ali Məclisin Sədri yeni mənzil və avtomobillə təmin olunanları təbrik edərək demişdir: Ölkəmizdə bu işlər ona görə həyata keçirilir ki, Azərbaycanda sabitlik vardır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Hər bir kəsin əməyi və xidməti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Bu gün yeni mənzil və avtomobillərin təqdim olunması da dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının və ölkəmizdə mövcud olan ədalətin təntənəsidir.

Ali Məclisin Sədri demişdir: Ölkəmiz inkişaf etdikcə sosial qayğıya ehtiyacı olan insanlara verilən müavinətlərin miqdarı da artırılır. İstər Sovetlər Birliyi dövründə Böyük Vətən Müharibəsində və Çernobıl hadisələrinin nəticələrinin aradan qaldırılmasında iştirak edən şəxslər, istərsə də Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri daim diqqətdə saxlanılır, onların rahat yaşayışı və sağlamlıqlarının bərpası üçün dövlətimiz tərəfindən lazımi tədbirlər görülür. Hər il muxtar respublikada sosial qayğıya ehtiyacı olan vətəndaşlara yeni mənzil və avtomobillər təqdim olunur. Bu il də müvafiq kateqoriyadan olan 16 muxtar respublika sakininə avtomobil, 10 nəfərə isə mənzil verilmişdir. Bu işlər 2016-cı ildə də davam etdiriləcəkdir.

Ali Məclisin Sədri mənzil və avtomobillə təmin olunanlara xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə, ölkəmiz və xalqımız üçün layiqli övlad böyütdüklərinə görə təşəkkür etmiş, onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmiş, yeni mənzillərində rahat həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

Şəhid anası Gülsüm Quliyeva minnətdarlıq edərək demişdir ki, bu gün Azərbaycanda Vətən, xalq qarşısında xidməti olan şəxslərə hərtərəfli qayğı göstərilir. Mənim övladımın da vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirildi, ailəmiz yeni mənzillə təmin olundu. Fəxr edirəm ki, övladım müstəqil Azərbaycan dövlətinin müdafiəsi uğrunda şəhid olub.

Tədbir iştirakçıları doğum günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təbriklərini çatdırmış, göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

Yeni mənzillə təmin olunanlara xalça hədiyyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan şəhərində zabit ailələri üçün yeni xidməti yaşayış binası istifadəyə verilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hərbi hissələrinin maddi-texniki bazası ilbəil möhkəmləndirilir, şəxsi heyət üçün nümunəvi yaşayış və xidmət şəraiti yaradılır. Aparılan quruculuq işləri zamanı zabit ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır, yeni xidməti yaşayış binaları tikilərək istifadəyə verilir.

Dekabrın 24-də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan şəhərindəki hərbi şəhərciyində zabit ailələri üçün yeni xidməti yaşayış binası istifadəyə verilmişdir.

Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov zabit ailələrini yeni mənzillərlə təmin olunmaları münasibətilə təbrik edərək demişdir: Ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər həyata keçirilir, müstəqil dövlətimizin qarantı olan ordumuza hərtərəfli dövlət qayğısı göstərilir. Ordumuz günü-gündən möhkəmlənir, lazım olan silah-sursatla təmin olunur, əsgəri-məişət kompleksləri tikilir, zabit ailələri yeni mənzillərlə təmin olunurlar. Ölkəmizdə dövlət qayğısı ilə yanaşı, həm də ordu-xalq birliyi vardır və dövlət-ordu-xalq birliyi ayrılmazdır. Bunun nəticəsidir ki, hər bir əsgər və zabit həm dövlətimiz, həm də xalqımız tərəfindən hörmət və qayğı ilə əhatə olunmuşdur. Bu gün zabit ailələri üçün istifadəyə verilən yeni yaşayış binası muxtar respublika əhalisinin ödədiyi vergi və dövlət büdcəsinə qənaət hesabına tikilmişdir. Müasir səviyyədə qurulmuş, lazımi mebel və avadanlıqlarla təmin olunmuş binanın tikintisinə 3 milyon manat vəsait sərf olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Azərbaycan ordusu regionun ən güclü və inkişaf etmiş ordusuna çevrilmişdir. Ordumuz sərhədlərimizi qorumağa və işğal altında olan torpaqlarımızı azad etməyə hər an hazırdır. Ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər hərbi xidmətə və hərbi təhsilə marağı da xeyli artırmışdır. Bunun nəticəsidir ki, hərbi liseylərə və ali hərbi məktəblərə daxil olan gənclərin sayı ilbəil artır. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən ordu, birləşmə və hissələrində xidmət edən, eləcə də yeni təyinat almış zabitlərə mənzillərin verilməsi digər hərbi qulluqçuların fəaliyyəti üçün stimul yaradır.



“Zabit o zaman yaxşı xidmət edir ki, onun ailəsinə dövlət qayğısı göstərilsin, yaşayışı üçün lazımi şərait yaradılsın”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, muxtar respublikada yerləşən ordu, birləşmə və hissələr üçün hər il yeni yaşayış binaları, əsgəri-məişət kompleksləri və digər hərbi obyektlər tikilərək istifadəyə verilir. Bütün bunlar da ordunun möhkəmliyinə xidmət etməklə yanaşı, həm də zabitlərin xidməti borclarını layiqincə yerinə yetirməsinə şərait yaradır. Bu gün zabit ailələri yeni mənzillərə köçürlər. Yeni mənzillə təmin olunmaq hər bir insanın həyatında ən əlamətdar hadisədir. Zabit uzun müddət bir yerdə xidmət etmir. Lakin nə qədər xidmət etməsindən asılı olmayaraq, onun ailəsi hər cür şəraiti olan mənzildə yaşamalıdır. Həmçinin yeni xidməti yaşayış binalarının tikilməsi dövlət tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinə ayrılan büdcə xərclərinə qənaət olunmasına imkan verir. Çünki yeni binada mənzillə təmin olunan zabitlər müxtəlif yerlərdə vəsaiti dövlət tərəfindən ödənilən evlərdə yaşayırdılar. Bu da müəyyən çətinliklər yaradırdı. Lakin bu gün hərbi şəhərcikdə istifadəyə verilən binada zabit ailələri rahat yaşayacaqlar.

Ali Məclisin Sədri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrdə xidmət edən əsgər, zabit və digər hərbi qulluqçuları, onların ailələrini və tədbir iştirakçılarını təbrik etmişdir.

Hərbçi ailələri adından minnətdarlıq edən Sədaqət Vəliyeva demişdir ki, muxtar respublikada zabit ailələrinin sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır. Bu gün yeni mənzillərin təqdim olunması hərbçi ailələrinin böyük sevincinə səbəb olmuşdur. Həyata keçirilən bu tədbirlər göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və açarlarını təqdim etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 6 mərtəbəli binada 60 ikiotaqlı, 4 üçotaqlı və 4 dördotaqlı olmaqla, 68 mənzil vardır. 4 girişi olan binadakı mənzillərin sahəsi ikiotaqlılarda 62, üçotaqlılarda 77, dördotaqlılarda isə 105 kvadratmetrdir. Bütün mənzillərə lazımi mebel və məişət avadanlıqları qoyulmuşdur. Mühəndis-texniki tələblər səviyyəsində inşa olunan binada mərkəzləşdirilmiş istilik sistemi qurulmuşdur.

Binanın həyətində də geniş abadlıq işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbirlər keçirilib

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı bu yaxınlarda istifadəyə verilmiş Şərur rayonundakı Axaməd Kənd Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirib.*

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə ilə çıxış edərək bildirib ki, XX əsrin sonları Azərbaycan xalqının tarixində ən mürəkkəb, ən gərgin və milli müstəqillik uğrunda mübarizələrlə dolu illər olub. Bu dövrdə erməni təcavüzünə qarşı Azərbaycan torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxan xalq müstəqil dövlətini yaratmaq əzmini bildirib, imperiya qüvvələri və onların əlaltıları ilə qeyri-bərabər döyüşə girib.

Azərbaycan xalqının inadlı mübarizəsindən qorxuya düşənlər onu yolundan döndərmək, xalqı parçalamaq və məhv etmək üçün məkrli planlara əl ataraq, hətta qan tökməkdən də çəkinməyiblər. Belə bir şəraitdə imperiyanın mərkəzində xalqımızın haqq səsini ilk dəfə yüksək səviyyədə dahi şəxsiyyət Heydər Əliyev qaldırıb. Xalqa və Vətənə bağlılıq ulu öndəri Azərbaycana gətirsə də, imperiya əlaltıları ona Bakıda qərar tutmağa imkan verməyiblər. Azadlıq hərəkatının beşiyi Naxçıvana qayıdan ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilib. Ulu öndərin Azərbaycançılıq ideyasına sədaqətinin ifadəsi idi ki, görkəmli dövlət xadimi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenidən ucaltmağa nail olub. 1991-ci il dekabrın 16-da isə ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib.

Bildirilib ki, ulu öndərimizin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diasporunun formalaşdırılmasına, müxtəlif dövlətlərin bir çox böyük şəhərlərində Azərbaycan dilində qəzetlərin nəşr olunmasına, radio və televiziya verilişlərinin təşkilinə nail olunub. Bütün dünya azərbaycanlılarının lideri Heydər Əliyevin xaricdə yaşayan soydaşlarımızla görüşləri zamanı verdiyi dəyərli məsləhətlər Azərbaycan diasporunun fəaliyyətinin canlanmasına və vahid məqsəd naminə birləşməsinə stimul verib. 9-10 noyabr 2001-ci il tarixdə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda dahi şəxsiyyət Heydər Əliyev çox böyük tarixi əhəmiyyət kəsb edən geniş nitq söyləyib. Böyük öndər xaricdə yaşayan azərbaycanlılara tövsiyə edərək deyirdi ki, dünyada yaşayan bütün azərbaycanlılar Azərbaycançılıq ideologiyası, müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı ətrafında sıx birləşməli, bu ideologiyaya öz əməli fəaliyyətləri ilə töhfələr verməlidirlər. Qurultaydan sonra dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı öz ətrafında birləşdirən icmaların mütəşəkkilliyi və fəallığı daha da artıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət bu gün Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Diqqətə çatdırılıb ki, hazırda dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun 400-dən artıq təşkilatı fəaliyyət göstərir və onların hər biri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə öz töhfəsini verir. Bu da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ideologiyanın təntənəsi, bunun nəticəsində Azərbaycan həqiqətlərinin get-gedə dünyada tanınması və qəbul edilməsi deməkdir.

Tədbirdə Axaməd kənd tam orta məktəbi və kənd ərazi ilk partiya təşkilatlarının sədrləri Arif Yusifov və Zaman Abbasov, partiya üzvü Tamara Aşurlu çıxış ediblər.

**Elman MƏMMƏDOV**

***Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin 202-ci məşğələsi keçirilib.***

“Heydər Əliyev dünya azərbaycanlılarının milli-mənəvi birliyinin yaradıcısıdır” mövzusuna həsr olunmuş məşğələdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək vurğulayıb ki, xalqımız ən ağır, çətin məqamlarda ümummilli liderimizin ətrafında bir yumruq kimi birləşməklə möhtəşəm tarixi nailiyyətlərə imza atıb. Naxçıvanda vüsət alan milli birlik uğrunda mübarizəyə ilk dəfə xalqımızın böyük oğlu Heydər Əliyev düzgün siyasi qiymət verərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması ilə bağlı xüsusi qərar imzalayıb. Həmrəylik Günü dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən əziz bayram kimi qeyd olunur.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov çıxışında bildirib ki, dünya azərbaycanlılarının birliyi, soydaşlarımızın həmrəyliyi ideyası ümummilli lider Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında göstərdiyi tarixi xidmətlərindən biridir. Vurğulanıb ki, iyirmi dörd il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın Azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi prosesinin başlanğıcını qoyub. Azərbaycançılıq ideyası bitkin ideologiya kimi məhz müstəqillik dövründə ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılıb. Ulu öndərin hakimiyyətə tarixi qayıdışı bütün sahələrdə olduğu kimi, diaspor quruculuğu və dünya azərbaycanlılarının həmrəyliyi istiqamətində də yeni vəzifələrin meydana gəlməsinə və yeni işlərin başlanmasına rəvac verib. Dahi rəhbər böyük inamla dünya azərbaycanlılarının bir amal və bir məslək uğrunda fəal mübarizə aparması işinə başlayıb, bu çətin problemi öz dühasının gücü ilə uğurla həll edib. 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri olub. Həmin qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsinə şərait yaradıb. Məruzəçi qeyd edib ki, ulu öndər Heydər Əliyevin milli birlik və Azərbaycançılıq ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən uğurla davam etdirilir.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim olunub.

**Mina QASIMOVA**

## 2015-ci ildə energetika sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur

*Muxtar respublikada yeni elektrik stansiyaları tikilib istifadəyə verilir, yarımstansiyaların, elektrik verilişi şəbəkələrinin davamlı fəaliyyəti təmin olunur. Bu sahədə görülən işlərin nəticəsidir ki, elektrik enerjisinə olan tələbat tam daxili istehsal hesabına ödənilir.*



2015-ci ildə də muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin miqyası genişləndirilmişdir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən 2015-ci il üçün energetika proqramı qəbul olunmuş, yeni elektrik stansiyalarının tikintisi və elektrik təsərrüfatının istismar səviyyəsinin yaxşılaşdırılması diqqətdə saxlanılmışdır. Təbii ki, muxtar respublikada yaşayış məntəqələrinin, istehsal müəssisələrinin daimi və dayanıqlı elektrik enerjisi ilə təminatı sahəsində həyata keçirilən tədbirlərin ən əhəmiyyətlisi dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi olmuşdur. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində görülən işlərin tərkib hissəsi olan 20 meqavatlıq Günəş Elektrik Stansiyası uzun illər abonentləri elektrik enerjisi ilə təmin edəcəkdir. Bu gün də muxtar respublikada yeni elektrik stansiyalarının tikintisi diqqətdə saxlanılır. Hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavatlıq Ordubad Su Elektrik Stansiyası inşa olunur.



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən istehlakçıların elektrik enerjisi təchizatının yaxşılaşdırılması diqqətdə saxlanılmış, yeni transformator yarımstansiyaları qoyulmuş, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilişi və yeraltı kabel xətləri ilə əvəz edilməsi işləri həyata keçirilmiş, stansiya və yarımstansiyalarda əsaslı və cari təmir işləri aparılmışdır. Naxçıvan Modul Elektrik Stansiyasında mövcud olan 10 aqreqat və inzibati bina əsaslı təmir olunmuş, ehtiyat hissələri və yağ tədarük edilmişdir. Araz Su Elektrik Stansiyasının turbinləri də təmir edilmiş, akkumulyator batareyaları yenilənmiş, müasir ölçü cihazları quraşdırılmışdır. Bundan başqa, yeni bina ilə təmin olunan “Araz” yarımstansiyasında müasir idarəetmə, mühafizə və avtomatika qurğuları quraşdırılmışdır. Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında, Biləv, “Arpaçay-1”, və “Arpaçay-2” Su Elektrik stansiyalarının da fasiləsiz fəaliyyəti təmin edilmiş və elektrik enerjisi istehsalı rejimə uyğun həyata keçirilmişdir.

Energetika proqramına uyğun olaraq energetiklərin iş şəraitinin yaxşılaşdırılması, yüksəkgərginlikli transformator yarımstansiyalarının tikilməsi və elektrik verilişi xətlərinin çəkilişi davam etdirilmişdir. Ötən dövrdə Kəngərli Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati bina tikilib istifadəyə verilmiş, işçilər mütəmadi olaraq mühafizə vasitələri və mövsümə uyğun geyim dəstləri ilə təmin olunmuşlar. Bununla yanaşı, Kəngərli rayonunda 35 meqavolt-amper gücündə “Qıvraq”, 6300 kilovolt-amperlik “Qıvraq nasos” və Babək rayonunda 1260 kilovolt-amperlik “Nehrəm” yarımstansiyaları tikilib istismara verilmişdir. Həmçinin Kəngərli rayonunda istifadəyə verilən yeni sənaye kompleksi üçün 110/10 kilovoltluq 10 meqavolt-amper güclü transformator yarımstansiyası quraşdırılmışdır. Ümumiyyətlə, 2015-ci il ərzində muxtar respublikanın yaşayış məntəqələrində 44 ədəd 10/0,4 kilovoltluq müxtəlif güclü transformator yarımstansiyaları quraşdırılmış, 84 kilometrlik elektrik verilişi xətti çəkilmiş, 7,5 kilometr hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. İl ərzində Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 160 müxtəlif güclü transformator əsaslı təmir olunaraq istismara buraxılmışdır.

Payız-qış mövsümünə hazırlıq energetika sahəsində çalışanlar üçün mühüm məsələdir. Buna görə də agentlik tərəfindən hər il payız-qış mövsümünə ciddi hazırlıq işləri görülür. Energetiklər bu il də əhalinin soyuq qış aylarında elektrik enerjisi təminatında heç bir problem yaşamaması üçün vaxtında müvafiq tədbirlər görmüşlər.

2015-ci ildə muxtar respublikada elektrik enerjisindən səmərəli istifadə və israfçılığın qarşısının alınması məqsədilə reydlər keçirilmişdir. Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində smartkarttipli sayğacların quraşdırılması da bu sahədə görülən işlərin mühüm tərkib hissəsidir. İl ərzində 9 min ədəd belə sayğac quraşdırılmışdır. Bütün bunlar elektrik enerjisi itkisinin qarşısının alınmasına səbəb olmuşdur.

Energetika işçiləri daha böyük uğurların əldə olunması üçün yaradılan şəraitdən səmərəli istifadə edəcək, bundan sonra da istehlakçılar keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunacaqlar.

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi**

*Muxtar respublikada yol-nəqliyyat kompleksi davamlı surətdə inkişaf etdirilir, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldilir. Bu sahədə 2015-ci ildə də mühüm işlər görülmüşdür.*

## Nəqliyyat infrastrukturunun inkişafı əhalinin rahatlığına xidmət edir

“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a uyğun olaraq, Naxçıvan şəhərinin yol-nəqliyyat infrastrukturu təkmilləşdirilmiş, şəhərdə nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidləri və dayanacaqlar istifadəyə verilmişdir. Şəhərdaxili marşrutlar üçün yeni avtobusların alınıb gətirilməsi də əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltmişdir. Bu il 7 müasir avtobus alınaraq şəhərdaxili sərnişindaşımada istifadəyə verilmiş, Naxçıvan şəhərində əhaliyə 24 saat xidmət göstərən yeni taksi xidməti fəaliyyətə başlamışdır. Artıq günün istənilən vaxtında “288” nömrəsinə zəng etməklə taksi xidmətindən yararlanmaq mümkündür.

Yaşayış məntəqələrinin inkişafı, əhalinin sayının artması, öz növbəsində, nəqliyyat sektorunun da inkişafını, yenilənməsini tələb edir. Ötən dövrdə ucqar dağ kəndlərində nəqliyyat xidmətinin təşkilinə xüsusi diqqət yetirilmiş, Ordubad rayonunun Bist, Əlahi, Xurs və Nürgüt kəndlərinə yeni marşrutlar açılmışdır. Hazırda muxtar respublikada 138 marşrut üzrə xidmət göstərən 303 avtobus və 489 taksi vasitəsilə bütün rayon mərkəzləri və kəndlərə gediş-gəliş təmin edilmişdir. Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə xidmətin günün tələbləri səviyyəsində təşkilinə də diqqət artırılmış, 2 ədəd müasir “MAN Neoplan” markalı avtobus alınaraq xəttə buraxılmışdır. 2015-ci ilin ötən dövründə Naxçıvandan Bakıya 1101 reyslə 45 min 942, əks-istiqamət üzrə isə 45 min 703 sərnişin daşınmışdır. Yeni beynəlxalq marşrutların fəaliyyətə başlaması istiqamətində də müvafiq işlər görülmüş, oktyabr ayından etibarən Naxçıvan-Urmiya-Naxçıvan avtobus marşrutu istifadəyə verilmişdir.

Sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrinə dövlət nəzarəti etibarlı xidmətin təşkilində mühüm amillərdəndir. Bu istiqamətdə işlər 2015-ci ildə də davam etdirilmiş, 192 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmişdir. Hüquqi və texniki cəhətdən standartlara cavab verən 351 avtonəqliyyat vasitəsinə lisenziya kartları, 12 min 145 avtonəqliyyat vasitəsinə isə “Fərqlənmə nişanı” verilmişdir. Həmçinin yol-hərəkət qaydalarına riayət edilməsi ilə bağlı keçirilən reydlər zamanı qanunsuz sahibkarlıqla məşğul olan 227 sürücü müəyyənləşdirilərək müvafiq tədbirlər görülmüşdür. “Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə ağırçəkili və iriqabaritli nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası”nın icrasına da diqqət artırılmış, yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilmiş, 1917 nəqliyyat vasitəsinə “İcazə blankı” verilmişdir.

İl ərzində maarifləndirmə işi də davam etdirilmiş, ayda bir dəfə Naxçıvan Avtobus parkında muxtar respublikada sərnişin daşımalarını yerinə yetirən sürücülərin və bu sahədə fəaliyyət göstərən sahibkarların iştirakı ilə tədbirlər keçirilmişdir. Bundan başqa, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar avtobusların texniki sazlığı mütəmadi yoxlanılmış, qışda tam gücü ilə işləmələri üçün hazır vəziyyətə gətirilmişdir.

Sərnişindaşıma fəaliyyətinin günün tələblərinə uyğun təşkili həm də xidmət mədəniyyətinin yüksəldilməsini şərtləndirir. Bu amil nəzərə alınaraq avtovağzalların fəaliyyəti, eləcə də sürücülərin geyim forması, nəqliyyat vasitələrinin təmizliyi daim nəzarətdə saxlanılır. Avtovağzallarda istilik sistemlərinin sazlığı, iaşə xidmətinin təşkili, nəqliyyat vasitələrinin, xüsusilə axşam saatlarında şəhərdaxili marşrutların qrafik üzrə hərəkəti təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamının icrası da təmin edilmişdir. Belə ki, Naxçıvan Dövlət Universitetində Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi və Naxçıvan Dövlət Texniki Kollecində Nəqliyyat vasitələrinin texniki istismarı və Yol hərəkətinin təşkili ixtisasları Nəqliyyat Nazirliyi tərəfindən hamiliyə götürülmüş, hazırlanmış tədbirlər planına uyğun təhsil müəssisələrində dərslər keçirilmişdir.

Nəqliyyat xidmətinin yüksəldilməsi, avtonəqliyyat vasitələrində, eləcə də avtovağzal və dayanacaqlarda əhalinin rahatlığının təmin olunması məqsədilə görülən işlər növbəti ildə də diqqət mərkəzində saxlanılacaqdır.

**Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti**

## *Gəmiqaya “Bərəkət Bazarlama”* Məhdud Məsuliyyətli Cəmiyyətində xidmət günün tələbləri səviyyəsindədir

“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının müxtəlif müəssisələrində istehsal edilən, “Badamlı”, “Bərəkət”, “Mirvari” və “Qızıl damla” əmtəə nişanları ilə satışa çıxarılan kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları, təbii mineral süfrə suyu, meyvə nektarları, halva, un, müxtəlif çeşiddə çörək, makaron, ət və süd, eləcə də şirniyyat kimi sənaye məhsulları keyfiyyət göstəriciləri ilə seçilir, alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək işin bir vacib sahəsidirsə, istehsal edilən məhsulların tələb olunan şəraitdə saxlanılması və ayrı-ayrı ticarət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması, istehlakçılara təqdim olunması isə işin bir-birini tamamlayan digər mühüm əhəmiyyətli sahəsidir. Bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılmış, 2010-cu ilin mart ayında Gəmiqaya “Bərəkət Bazarlama” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır.



Marketinq və satış şöbələrinin fəaliyyət göstərdiyi müəssisəyə xaricdə təhsil almış və təcrübə keçmiş gənc mütəxəssislər cəlb olunmuşlar. Həmin mütəxəssislər daxili bazarın tələbatını öyrənir, yerli məhsulların tanıdılması məqsədilə təbliğat işləri aparırlar. Qida məhsullarının satış qiymətlərində endirim edilir, daha çox yerli məhsul alan müştərilərə hədiyyələr verilir. Gediş-gəliş çox olan ərazilərdə yerli məhsullardan ibarət səyyar sərgilər təşkil olunur. Xüsusilə isti yay aylarında soyuducu çanta ilə təmin olunmuş şirkətin nümayəndələri tərəfindən parklarda və ictimai nəqliyyatda dequstasiya (daddırma) tədbirləri həyata keçirilir ki, bu, yerli məhsula inamı artırır. Nəticədə, qida məhsullarına olan tələbat artır. Gəmiqaya “Bərəkət Bazarlama” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən satışa çıxarılan qida məhsullarının və müəssisədə fəaliyyət göstərən “qaynar xətt” telefon nömrələrinin əks olunduğu lövhələr bütün ticarət obyektlərində alıcıların diqqətini cəlb edən guşələrdə asılmışdır. Yerli qida məhsulları ilə bağlı müəssisəyə daxil olan bütün telefon zəngləri və təkliflər diqqətlə araşdırılır. Qida məhsullarının bütün növlərinin ayrı-ayrılıqda satışına nəzarət olunur. Nəticələr müzakirə edilir, satışında azalma müşahidə olunan sahələr müəyyənləşdirilir və azalmanı doğuran səbəblər aradan qaldırılır.

“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının qida qrupuna daxil olan sənaye müəssisələrində istehsal edilən yerli məhsulların keyfiyyətlə saxlanılması və ticarət obyektlərinə çatdırılmasına da əlverişli şərait yaradılmışdır. Naxçıvan şəhərində qida məhsullarını mənfi 15 dərəcəyədək saxlamaq imkanı olan soyuducu anbar istifadəyə verilmiş, ayrı-ayrı rayonlarda satış bazaları yaradılmışdır. Müəssisənin Naxçıvan şəhərində fəaliyyət göstərən mərkəzi bazasına daxil olan qida məhsulları yük avtomobilləri ilə rayon mərkəzlərində yerləşən satış bazalarına daşınıb həftəlik ehtiyat yaradılır. “Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi müxtəlif çeşiddə çörəklər isə gündəlik olaraq Naxçıvan şəhərindən, ayrı-ayrı rayon mərkəzlərindən başlayaraq ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Qida məhsullarının müəyyən olunmuş şəraitdə saxlanması üçün həmin ticarət obyektləri soyuducularla təmin edilmiş, qida məhsullarının soyuducularda saxlanmasına və düzülüşünə nəzarət məqsədilə xüsusi dizaynerlər qrupu yaradılmışdır.

Müəssisədə fəaliyyət göstərən satış şöbəsində də xidmət günün tələbləri səviyyəsində qurulmuş, muxtar respublikamızın şəhər və rayonları yerləşdiyi əraziyə uyğun olaraq 3 qrup üzrə komplektləşdirilmişdir. Naxçıvan-Babək-Şahbuz, Kəngərli-Şərur-Sədərək, Ordubad-Culfa bölgələri üzrə ticarət nümayəndələri təyin olunmuşdur ki, onlar da həmin rayonlar üzrə tələbatı öyrənib müəssisəyə sifarişlər verirlər. Qida məhsulları rayon bazaları vasitəsilə bütün ticarət obyektlərinə vaxtında çatdırılır. Xatırladaq ki, əvvəllər ucqar dağ və sərhəd kəndlərinə məhsullar ticarətçi tərəfindən alınıb sərnişin avtobuslarında aparılırdısa, indi bu problem də aradan qaldırılmışdır. Bu həm istehsalçı, həm istehlakçı, həm də ticarətçi üçün olduqca əlverişlidir. Çünki istehsalçı məhsulun satışına, istehlakçı keyfiyyətli və münasib qiymətə məhsul almağa, ticarətçi isə əlavə daşınma xərci çəkməməyə maraqlıdır.

**Kərəm HƏSƏNOV**

# Baxış-müsabiqənin qalibləri mükafatlandırılmışlar

***Bədii özfəaliyyət kollektivlərinin "İstedadlar sorağında" adlı muxtar respublika baxış-müsabiqəsinin qaliblərinin yekun konserti olmuşdur.***





Konsertdən əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirmişdir ki, ümummilli liderimiz Heydər Əliyev sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir. Ulu öndərin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Muxtar respublikada gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakı təmin edilir, gənc istedadlara dövlət qayğısı günbəgün artırılır. Xüsusilə onların yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda və vətənpərvər böyüdülməsi diqqət mərkəzində saxlanılır.

Sonra müsabiqənin qalibləri mükafatlandırılmışlar. Müsabiqədə birinci yerə rəqs ifaçılığı nominasiyası üzrə Culfa Rayon Mədəniyyət Evinin üzvü Aysu Kazımlı, bədii qiraət nominasiyası üzrə Şahbuz Rayon Mədəniyyət Evinin üzvü Qızbəsti Quliyeva, xalq, bəstəkar mahnıları və muğam ifaçılığı nominasiyası üzrə Naxçıvan şəhər 4 nömrəli mədəniyyət evinin üzvü Arzu Səfərov layiq görülmüşlər.

Mükafatlandırmadan sonra bədii özfəaliyyət kollektivlərinin muxtar respublika baxış-müsabiqəsi qaliblərinin yekun konserti olmuşdur.

**Xəbərlər şöbəsi**

# "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləri

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 21 dekabr tarixli Sərəncamı ilə 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsində müvəffəqiyyət qazanan müəllimlər mükafatlandırılmışlar. Mükafatlandırılanlar arasında muxtar respublikamızda fəaliyyət göstərən müəllimlər də var. Həmin müəllimləri oxucularımızla yaxından tanış etmək üçün redaksiyamıza dəvət edib təəssüratlarını öyrəndik.***



***Tahirə QASIMOVA – Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimi:*** – Pedaqoji fəaliyyətə 1994-cü ildə başlamışam. O illərdə rayon üzrə çox az halda tələbə adını qazananlar olurdu. 2014-2015-ci tədris ilində isə rayonun ümumtəhsil məktəblərini 88 məzun bitirmiş, onlardan 58-i ali məktəblərə qəbul üçün sənəd vermiş, 26 nəfər tələbə adını qazanmışdır. Məzunların 4 nəfəri 500-700 intervalında bal toplamışdır. Sevindirici haldır ki, son iki ildə 600 balı keçən məzunlar sırasına sədərəkli gənclər də daxil olur.

Əmək fəaliyyətimin dövlət başçısı tərəfindən yüksək qiymətləndirilməsi mənim üçün ən böyük mükafatdır. Çalışacağam ki, bu mükafata əməli işimlə cavab verim.



***Hüseyn RZAYEV – Şahbuz rayon Ayrınc kənd tam orta məktəbinin müəllimi:*** – Mən 1979-cu ildə indiki Naxçıvan Dövlət Universitetinin fizika ixtisasını bitirmişəm. İlk əmək fəaliyyətimə Şahbuz rayon Ayrınc kənd tam orta məktəbində başlamışam. İndiyə kimi də bu məktəbdə fizika fənnini tədris edirəm. Bu illər ərzində bir sıra diplomlara, mükafatlara layiq görülmüşəm. Tədris etdiyim fənn üzrə şagirdlərimin 28-i hazırda fizika müəllimi, 2-si isə fizika ixtisası üzrə fəlsəfə doktorudur. Qeyd edim ki, fəaliyyət göstərdiyim məktəbin yeni binası 2005-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Həmin ildən məktəb kollektivinin məsuliyyəti qat-qat artmış, bir sıra uğurlar əldə edilmişdir.

"Ən yaxşı müəllim" müsabiqəsinin qalibi kimi mükafatlandırılmağımı, ümumilikdə, kollektivimizin əməyinə verilən qiymət kimi dəyərləndirir, dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Bundan sonrakı fəaliyyətimdə də vətənpərvər, savadlı, intellektli nəslin yetişməsinə çalışacaq, bu işdə savadımı, bacarığımı və var-qüvvəmi əsirgəməyəcəyəm.



***Şərəbanı SEYİDOVA – Kəngərli rayon Böyükdüz kənd tam orta məktəbinin müəllimi:*** – Təhsil digər fəaliyyət sahələrindən fərqli olaraq canlı orqanizmi xatırladır. O, strateji sahə kimi konkret yanaşma, böyük məsuliyyət və davamlı qayğı tələb edir. Muxtar respublikamızda təhsil sahəsinə yüksək qayğı göstərilir. İndi 18-19 il bundan əvvəl muxtar respublikadakı məktəblərin vəziyyətini xatırlamaq belə, istəmirsən. Minimum tələblərə cavab verməyən soyuq sinif otaqları, köhnəlmiş tədris avadanlıqları təhsil ocaqlarında tədrisin səviyyəsini yüksəltməyə imkan vermirdi. Əksinə, həmin təhsil ocaqlarında dərs keçmək belə, mümkün deyildi. Ümumilikdə, muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları barmaqla sayılacaq qədər idi. İndi isə təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır.

"Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmaq bir müəllim üçün ən böyük mükafatdır. Mən bir müəllim kimi bunu təhsil işçilərinin zəhmətinə və fədakarlığına verilən yüksək qiymətin ifadəsi kimi dəyərləndirirəm. Bundan sonra da bilik və bacarığımı, qəlbimin hərarətini daim dövlətin və xalqın sabahı naminə sərf edəcəyəm.



***Həcər AXUNDZADƏ – Babək qəsəbə 2 nömrəli tam orta məktəbin müəllimi:*** – Mən Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edirəm. Çalışıram ki, tədris etdiyim fənni şagirdlərimə yaxşı mənimsədim. Zəhmətim də hədər getmir. Dərs dediyim şagirdlər sınaq-test imtahanlarında yaxşı nəticələr göstərirlər. Onlara həyatda fəal mövqe tutmağı öyrətməyi də özümə borc sayıram. Dərs dediyin şagirdlərin xoş sorağını alanda qəlbin dağa dönür, ürəyin iftixar hissi ilə döyünür.

Müəllim elə sənətin sahibidir ki, o, gələcəyimiz olan gənclərin təhsil almalarında, milli ruhda tərbiyə olunmalarında xüsusi rol oynayır. Deməli, gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyularsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaqdır. Çalışıram ki, bu təməlin daha da möhkəm olmasında fəal iştirak edim.

İndi isə mən daha sevincliyəm. Çünki əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Mənə verilən bu qiymətə görə dövlətimizə minnətdarlığımı bildirirəm. Bu qiymət təkcə mənə deyil, məktəb kollektivinə verilən qiymətdir. Bundan sonra da yaradıcı ideyaları və müsbət təcrübəni mənimsəyib tədris prosesində tətbiq edəcək, etimadı doğrultmağa çalışacağam.

**✍ Sara ƏZİMOVA**

# "Lira" musiqili-intellektual oyunu

*Dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Lira" musiqili-intellektual oyunu keçirilib.*



Oyunda Bəhruz Kəngərli adına Şərur Şəhər İncəsənət, Culfa Şəhər, Babək və Şahbuz Rayon Uşaq Musiqi məktəblərinin şagirdləri iştirak ediblər. "Lira" musiqili-intellektual oyununun məqsədi şagirdlərin musiqi haqqında dünyagörüşünü genişləndirmək, xalqımızın görkəmli bəstəkarlarının həyat və yaradıcılığını təbliğ etmək, zəngin musiqi irsimiz haqqında təsəvvürlərini genişləndirmək idi. Musiqili-intellektual oyunda iştirak edən məktəblərin komandaları müvafiq olaraq belə adlandırılmışdı: "Şərili" (Şərur Şəhər Uşaq İncəsənət Məktəbi), "Buta" (Culfa Şəhər Uşaq Musiqi Məktəbi), "Harmoniya" (Babək Rayon Uşaq Musiqi Məktəbi), "Kərəmi" (Şahbuz Rayon Uşaq Musiqi Məktəbi).

Oyun başlamazdan əvvəl aparıcı iştirakçılara oyunun şərtləri haqqında məlumat verib. Bildirilib ki, oyun hər biri 5 nəfərdən ibarət olan 4 komanda arasında keçiriləcək və 3 turdan ibarət olacaqdır. Hər bir turda komandalara musiqi ilə bağlı suallar veriləcək.

Oyun başlandıqdan sonra iştirakçılara böyük Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev, Asəf Zeynallı, Niyazi haqqında musiqi əsərlərini dinləmə yolu ilə təyinetmə formatında, ümumi musiqi dünyagörüşü haqqında suallar verilib.

Maraqlı keçən musiqili-intellektual oyun başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında yeniyetmə və gənclər hərtərəfli qayğı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikası Gənc istedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi üçün görülən işlərin ardıcıllığını göstərir. Bu gün keçirilən "Lira" musiqili-intellektual oyun onların həm də əqli inkişafına kömək edən yarışdır.

Sonra birinci yerə layiq görülən Babək Rayon Uşaq Musiqi Məktəbinin "Harmoniya" komandasına diplom təqdim edilmişdir.

**Əli RZAYEV**

# Hemofiliyalı xəstələr üçün maarifləndirici tədbir keçirilib

***Hemofiliya bütün dünyada geniş yayılmış irsi qan xəstəliyidir. Azərbaycanda rəsmi statistikaya əsasən, hemofiliyalı xəstələrin sayı 1500-ə yaxındır. Hər il 40-60 yeni xəstə qeydiyyata alınır. Bu xəstəlik insan qanında laxtalanma faktorlarının çatışmazlığı nəticəsində əmələ gələn, anadan, əsasən, oğlan uşaqlarına irsən ötürülən xəstəlikdir.***

Hemofiliyalı xəstələr mütəmadi olaraq laxtalanma faktorları qəbul etmədikdə dəfələrlə baş verən şiddətli qanaxmalar, oynaqlara və yumşaq toxumalara qansızmalar onların uşaq və gənc yaşlarında şikəst olmasına, bəzi hallarda isə ölümünə səbəb olur.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası belə xəstələrin vəziyyətinin yaxşılaşdırılması məqsədilə regionlarda maarifləndirici tədbirlər keçirir. Dünən Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası belə bir tədbirə ev sahibliyi etmişdir. Məqsəd hemofiliya xəstəliyinin profilaktikasını təşkil etmək, fəsadlarının qarşısını almaq üçün maarifləndirmə işləri aparmaqdan ibarət idi.

Tədbirdə çıxış edən Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının prezidenti Gülnarə Hüseynova bildirmişdir ki, son illər hemofiliyadan əziyyət çəkən insanların müalicəsi istiqamətində mühüm tədbirlər görülmüş, "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi bu xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə imkan vermişdir. Görülən tədbirlər nəticəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyətinin təmin edilməsinə, ömürlərinin uzanmasına, bu xəstəlikdən əlillik və ölüm hallarının azaldılmasına nail olunmuşdur. Amma buna baxmayaraq, hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsinə ehtiyac var.

"Hemofiliya daşıyıcısı olan xəstə müalicə aldıqda nə qədər yaşaya bilir?" sualına isə Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının regional direktoru Təranə Cəlilova aydınlıq gətirmişdir. Qeyd olunmuşdur ki, hemofiliyalı insan düzgün və vaxtlı-vaxtında müalicə alarsa, sağlam insan nə qədər yaşayarsa, o qədər yaşayar. Çünki təhlükəsiz qandan istehsal olunmuş preparatlarla müalicə xəstələri bütün problemlərdən sığortalayır.

Dövlət proqramında nəzərdə tutulmuşdur ki, xəstələr təhlükəsiz qan faktorları ilə təmin olunacaqlar. Bu, böyük bir məsələdir. Proqram çərçivəsində təhlükəsiz, keyfiyyətli müalicə nəticəsində əlilliyin qarşısı alınacaq və hemofiliyalı insanlar sağlam vətəndaşlardan seçilməyəcəklər. Ümid edirik ki, onlar da sağlam vətəndaşlar kimi təhsil alacaqlar, işləyəcəklər və cəmiyyətdə öz yerlərini tutacaqlar.

Tədbirdə mövzuya dair xronika və sənədli film göstərilmiş, slaydlar nümayiş etdirilmişdir. Tədbir iştirakçılarına "Hemofiliya haqqında nə bilirik?" və "Hemofiliya irsi xəstəlikdir" adlı vərəqə və bukletlər paylanmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Babək rayonunun Babək qəsəbə sakini Cəlilova Bulqeyis Həsən qızının adına olan JN-713 ^A^ inventar nömrəli, 10301018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 958